# Keniyalı nümayəndə: Azərbaycan düzgün istiqamətdə irəliləyir

Azərbaycan Respublikasının hökuməti, xüsusilə Prezident dayanıqlılıq və yaşıl zonalar kimi mühüm məsələlərdə öz dəstəyini əsirgəmir. Bu da onu göstərir ki, Azərbaycan ölkə kimi düzgün istiqamətdə irəliləyir.

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Keniyanın paytaxtı Nayrobi şəhər qubernatorluğunun mədəniyyət tədbirləri və kommunikasiya üzrə direktoru Şeffi Ueru söyləyib.

COP29-a hazırlıq prosesinin təqdirəlayiq olduğunu vurğulayan keniyalı nümayəndə deyib: “Ümid edirəm ki, COP29 uğurlu keçəcək. Hava limanından gələrkən Olimpiya Stadionunu gördüm. Çox böyükdür və düşünürəm ki, Bakıya gələn böyük sayda qonaqları qəbul edə bilər”.

“İstər Afrika, istərsə də Avropa ölkəsi, əgər hər hansı ölkəyə bir tədbirdə iştirak etmək üçün 50-dən çox dövlətin rəsmiləri gəlirsə, bu, əlamətdar hadisədir. Azərbaycana bu tədbiri yüksək səviyyədə keçirmək üçün uğurlar arzulayıram”, - deyə Ş.Ueru vurğulayıb.

**Əyyub Ələsgərov**

**AZƏRTAC**
**2024, 7 oktyabr**